# NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN

# F Ə R M A N I

**Naxçıvan Muxtar Respublikasında informasiya kommunikasiya texnologiyaları və rabitə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında**

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini və 30-cu maddəsini rəhbər tutaraq, informasiya kommunikasiya texnologiyaları və rabitə sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyindəki Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzi və rayon (şəhər) rabitə idarələrinin bazasında Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin (bundan sonra - Nazirlik) tabeliyində "N-Telekom" publik hüquqi şəxs (bundan sonra – Qurum) yaradılsın.

2. "N-Telekom" publik hüquqi şəxsin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

3. Müəyyən edilsin ki:

3.1. Qurum informasiya-kommunikasiya texnologiyaları, rəqəmsallaşma, data mərkəzləri və rabitə (telekommunikasiya) sahəsində fəaliyyət göstərən publik hüquqi şəxsdir;

3.2. Qurumun nizamnamə fondu bu Fərmanın 1-ci hissəsində göstərilən qurumların əmlakı hesabına formalaşır;

3.3. Qurumun fəaliyyəti təşkil olunanadək Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzi və rayon (şəhər) rabitə idarələri fəaliyyətlərini davam etdirirlər.

4. Qurumun təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

4.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə:

4.1.1. Qurumun nizamnaməsinin təsdiqi və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

4.1.2. Qurumun idarəetmə orqanlarının yaradılması;

4.1.3. Qurumun yenidən təşkili və ləğvi;

4.2. Nazirliyə:

4.2.1. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla idarəetmə orqanlarının rəhbərlərinin (üzvlərinin) vəzifəyə təyin və vəzifədən azad edilməsi;

4.2.2. Qurumun strukturunun, əməyin ödənişi fondunun, işçilərinin say həddinin və onların əməkhaqlarının məbləğinin (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla təsdiqi;

4.2.3 bu Fərmanın 4.1-ci bəndində qeyd edilənlər istisna olunmaqla, “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

5. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti üç ay müddətində:

5.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə təqdim etsin;

5.2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını təmin edib Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə məlumat versin;

5.3. Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzi və rayon (şəhər) rabitə idarələrinin balansında olan dövlət əmlakının Qurumun balansına verilməsini təmin etsin.

5.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Nazirlik:

6.1. Qurumun dövlət qeydiyyatına alınması üçün 3 (üç) gün müddətində “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada tədbirlər görsün;

6.2. Qurumun strukturunu, əməyin ödənişi fondunu, işçilərinin say həddini və onların əməkhaqlarının məbləğini (vəzifə maaşını, vəzifə maaşına əlavələri, mükafatları və digər ödənişləri) Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla iki ay müddətində təsdiq etsin;

6.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini** **BƏXTİYAR MƏMMƏDOV**

Naxçıvan şəhəri, 18 oktyabr 2024-cü il
№ 3-VII FR